Sonya Makvani

# SUFİNİN 365 GÜNÜ

İngiliscədən tərcümə:
Əsəd Qaraqaplan

qanun nəşriyyatı

Sonia Mackwani

# 365

## DAYS OF A

# SUFI

Meru kiçik bir şəhərdə yaşayan yetim qızdır. O, sari toxucusudur. İllər sonra uşaqlıq rəfiqəsi Zeytunla görüşür. Rəfiqələr Merunun sufi babası İbn-Ər-Rəşiddən miras qalan evdə müəmmalı gündəlik tapırlar. Və hər şey bundan sonra başlayır. Bu gündəlik onların hər ikisinin həyatının gedişatını kökündən dəyişir.

**Sonia Mackwani** **365 DAYS OF A SUFI**
**Sonya Makvani** **SUFİNİN 365 GÜNÜ**

Janr: bədii ədəbiyyat, roman
Yaş qrupu: 12+
Ölçü: 130x200 mm
Cild: yumşaq
Səhifə sayı: 224

| | |
|---|---|
| Naşir: | Şahbaz Xuduoğlu |
| İngiliscədən tərcümə: | Əsəd Qaraqaplan |
| Redaktor: | Cəlil Cavanşir |
| Korrektorlar: | Bəsti Məmmədova, Çiçək Quluzadə |
| Mətn dizaynı: | Ramin Əli |
| Qapaq dizaynı: | Harshad Marathe |

Qanun Nəşriyyatı
Bakı, AZ 1102, Tbilisi pr., 76
Tel: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212-42-37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

ISBN 978-9952-600-44-5

© Qanun Nəşriyyatı, 2026
Copyright © Sonia Mackwani

First published in India 2022 by Leadstart
A Brand of One Point Six Technologies Pvt Ltd
Unit no. 26, Grd Floor, A1,Shram Safalya, Wadala Truck Terminal Road,
Near Post Office, Antop Hill, Mumbai – 400037
Mumbai- 400037, Maharashtra, INDIA
Phone: +91 96999 33000
Email: info@leadstartcorp.com Website - www.leadstartcorp.com

Bu kitabın Azərbaycan dilinə tərcümə və yayım hüquqları Qanun Nəşriyyatına məxsusdur. Kitabın təkrar və hissə-hissə nəşri “Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında” Azərbaycan Respublikasının Qanununa ziddir.

*Dünyanın sevgi, arzular və azadlıq üçün oyun meydanı olduğunu bilən içinizdəki səsə. Azadlıq böyüyən dostluqdur, sevgi hədiyyələrimizin əkilməsidir və xəyal bunun şirəsini dünya ilə paylaşmaqdır.*

*Mənim qədəhim boşdur...*
*Gəl onu doldur…*

## MÜƏLLİF HAQQINDA

Çoxsaylı mükafatlar qazanan Sonya Makvani ekstrasens və intuisiya kanalı mütəxəssisidir. Onun klinik psixologiya və hipnoterapiya üzrə magistr dərəcəsi var. Müəllif həm uşaqlar, həm də böyüklər üçün əsərlər yazır. O, Mumbayda uşaqlara və gecəqondu icmalarına öyrənmə, şəfa və incəsənət vasitəsilə dəstək verən "Touching Lives" qeyri-kommersiya təşkilatını yaradıb. Fəaliyyətindən əldə etdiyi qonorarın müəyyən faizi bu təşəbbüsə sərf olunur. O, ssenari məsləhətçisi, müstəqil rejissor, aktrisa və təlimçidir. Şirkətləri və şəxsləri mütləq sağlamlıq haqqında maarifləndirmək üçün "Müstəqil iş" (Self-Work) yanaşma modelini işləyib hazırlayıb. Təhsil və səhiyyə vasitələrinə dəstək olmaq üçün həm kənd, həm də şəhər sektorlarında geniş fəaliyyət göstərib. Həmçinin səkkizinci hissimizi inkişaf etdirməyə yönəlmiş "Master "Master yenidənqurma prosesi"nin (Master Reconnection Process) vasitəçisi, doğum izlərinin[1] müalicəsinə və həyatın yenidən qurulmasına istiqamətlənmiş "Doğuluş və varlıq"ın (Birth Into Being) koordinatorudur. Hindistan və İsveçrədə yaşayır.

[1] Buna limbik izlər də deyilir, psixologiya hər hansı təcrübənin doğuşdan əvvəl, hamiləlik ərzində və doğuşdan sonra döl və ya yeni doğulmuş uşağın limbik sisteminə həkk olunduğunu deyir. Limbik sistem beynin qidalanma, müdafiə və cinsi motivasiyalarının, emosiya və instinktiv davranışlarının yaranmasında iştirak edən hissəsidir. Buna dərin inanclar, dəyərlər və s. daxil olduğu "emosional xəritə" də demək olar.

## KİTABLARI, MUSİQİ VƏ FİLMLƏRİ

*Everyone Can Heal*
*The Rocket Science Called Love Tales from Indian Mythology*
*Power Minutes – Meditation* Audios, Times Music
*Space,* a short film

## MÜƏLLİFİN QEYDİ

Təsəvvür edin ki, nəsə axtarırsınız və dünyanızı dəyişən tamamilə başqa bir şey əldə edirsiniz. “Sufinin 365 günü” mənim üçün belə fenomenlərdən biri idi. Bu, təbiətin görünməyən qüvvələrinə və insanların sahib olduğu qiymətli hədiyyəyə – intuisiyaya inamımı gücləndirdi. 2017-ci ildə bədii kitabı yenicə tamamlamışdım, hekayələrə ara vermək və qeyri-bədii janrda nəsə yazmaq fikrinə düşdüm.

Metodlarımdan biri də işimə başlamazdan əvvəl kitabın üz qabığını hazırlamaqdır ki, həmin kitabın enerjisini yaradıcı reallıq məqamına çatdıra bilim. Dizaynlara baxarkən heyrətamiz dərəcədə sadə bir şəklə diqqət yetirdim – təsbeh tutmuş və dua üçün uzadılmış ovuclar. Bu müqəddəs təsvirdən o qədər ilham aldım ki, dərhal “Word” səhifəsi açdım və personajları, xüsusilə də öz qapalı həyatında azadlıq tapan Meru adlı qızı yaratmağa başladım.

Hətta təxəyyülümdə və yaradıcılığımda ilk dəfə onunla əlaqə yaradarkən ürəyimin, ruhumun və düşüncəmin meditativ məkanlarda dərinləşdiyini hiss edə bilirdim. Bu, mənəvi suallar və cavablara yol açırdı. “Sufinin 365 günü” mənə belə gəldi. Onu 21 gün ərzində, hər səhər

saat 7:00-dan 7:21-ə qədər, 21 dəqiqə yazdım. Bu mənim yazıçılıqda ikinci təcrübəmdir – ona qrafik təyin edirəm və konkret vaxt ayırıram. Hər kitab, onu hazırlamaq üçün ən yaxşı vaxt yetişəndə, mənimlə danışmağa başlayır.

Hekayənin necə gedəcəyini və personajların növbəti dəfə məni haraya aparacağını, onlara nəfəs vermək üçün hansı yeni personajların məni gözlədiyini bilmədən sadəcə dindar kimi kompüterimin arxasına keçirdim. Kanalda göstərildiyi kimi, 21-ci gündə "Sufinin 365 günü" doğuldu. Üçüncü təcrübəm isə ayrılmış vaxt istisna olmaqla, personajları və hekayələri təqib etməmək, düşünməmək, axtarmamaq idi. Sanki saat 7:00-dan 7:21-ə qədər mənim ziyarət vaxtım idi və sonra normal həyatıma davam edirdim.

Bütün simvollar, adlar və yerlər uydurmadır. Onların hər hansı real yer, insan və ya hadisə ilə əlaqəsi yoxdur. Lakin adları uydurma olduğu qədər səyahətləri və təcrübələri həqiqidir və bizə gerçək dünya üçün – sevgi, azadlıq və arzular haqqında dərslər öyrədir.

2018-ci ilin ortalarına qədər bunu işləmək üçün bir redaktor dostumla paylaşdım. 2019-cu ildə isə başqa redaktor dostum bunu nəzərdən keçirdi və rəsmi təklif formalaşdırmağıma kömək etdi. Kitab, növbəti addımıma doğru mənimlə əlaqə qurmaq üçün öz yolunu tapmışdı. 2019-cu ilin sonlarında onu nəşriyyatlara göndərdim və əvvəllər planlaşdırdığım qeyri-bədii kitabı yazmağa başladım. Hindistan 2020-ci ilin martında tam qapanmaya girəndə, hər şey mö-